**AZƏRBAYCAN RESPUBLİKASININ**
**ENERGETİKA NAZİRLİYİ**

# Ə M R

№3-15/3-2-208/2025

Bakı şəhəri "15" aprel 2025 il

**"Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"nin 4.5.8-ci yarımbəndinə əsasən Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən təqdim edilmiş təklifləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).
2. Energetika Nazirliyinin 27.06.2024-cü il tarixli 3-15/3-2-376/2024 nömrəli əmri ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənməyən hallarda (büdcə təşkilatlarında) elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi Qaydaları" ləğv edilsin.
3. Ümumi şöbə bu əmrin surətinin Energetika Nazirliyinin aidiyyəti struktur bölmələrinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.
4. Bu əmrin icrasına nəzarət Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İdarə Heyətinin sədrinə həvalə edilsin.

**Nazir** **Pərviz Şahbazov**

Azərbaycan Respublikası Energetika Nazirliyinin
"15" aprel 2025-ci il tarixli
3-15/3-2-208/2025" nömrəli Əmri ilə təsdiq edilmişdir

**Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi**

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa (bundan sonra – Qanun), Azərbaycan Respublikası Prezidentinin 22.12.2017-ci il tarixli 1750 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"nə, 16.07.2018-ci il tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"na, 27.09.2003-cü il tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a (bundan sonra – Təlimat) uyğun olaraq hazırlanmışdır və Enerji Məsələlərini Tənzimləmə Agentliyi (bundan sonra – Agentlik) tərəfindən Qanun ilə tənzimlənməyən hallarda dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında (bundan sonra – təşkilatlar) elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarət tədbirinin təşkili, həyata keçirilməsi, müddətləri, nəticələrinin rəsmiləşdirilməsi, tədbirlərin görülməsi, məsuliyyət və hesabatlılıqla bağlı Agentlikdaxili münasibətləri tənzimləyir.

1.2. Bu Qaydaların məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:

1.2.1. **nəzarət edən** – nəzarət tədbirini həyata keçirən Agentliyin işçisi olan müfəttiş;

1.2.2. **nəzarət olunan** – Qanun ilə tənzimlənməyən hallarda Agentlik tərəfindən nəzarət tədbirinin həyata keçirilməsi nəzərdə tutulan təşkilatlar;

1.2.3. **nəzarət tədbiri** – Qanun ilə tənzimlənməyən hallarda təşkilatlarda Agentlik tərəfindən plan üzrə (növbəti) və ya plandankənar (növbədənkənar) nəzarət olunanın tənzimlənən sahədə təsərrüfatlarının (sexləri, sahələri və obyektləri) olduğu yerlərə gəlməklə tənzimlənən sahədə normativ hüquqi aktların tələblərinə əməl edilməsi vəziyyətinin araşdırılması;

1.2.4. **plan-qrafik** – nəzarət olunan tərəfindən təsdiqlənmiş, onun elektrik, istilik və ya qaz qurğu və avadanlıqlarında təmir və sınaq işlərinin aparılması müddətlərini müəyyən edən sənəd;

1.2.5. **tənzimlənən sahə** – elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələri.

1.3. Bu Qaydalarda istifadə edilmiş digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə təsbit edilmiş mənalarda istifadə edilir.

1.4. Nəzarət tədbirinin həyata keçirilməsinin məqsədi tənzimlənən sahədə istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin və əlçatanlığının daha da artırılmasını, onların etibarlı, fasiləsiz, keyfiyyətli və təhlükəsiz elektrik və istilik enerjisi, habelə qaz ilə təchiz edilməsini, nəzarət olunan tərəfindən tənzimlənən sahədə normativ hüquqi aktların tələblərinə əməl olunmasını, qanun pozuntularının qarşısının alınmasını və yol verilmiş pozuntuların vaxtında aşkar edilərək aradan qaldırılmasını təmin etməkdir.

1.5. Nəzarət tədbiri texniki xarakter daşıyır və tənzimlənən sahəni tənzimləyən normativ hüquqi aktlara və texniki normativ hüquqi aktlara, o cümlədən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02.02.2005-ci il tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"na (bundan sonra – EEİQ), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16.05.2024-cü il tarixli 261 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik şəbəkələrinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair tələblər"ə (bundan sonra – ŞMT), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.07.2019-cu il tarixli 329 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yaşayış, ictimai binaların və mühəndis-kommunikasiya təminatı obyektlərinin elektrik təchizatının etibarlılıq kateqoriyaları"na (bundan sonra – ETEK), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.09.2023-cü il tarixli 303 nömrəli Qərarı ilə təsdiq edilmiş "İstilik enerjisindən istifadə Qaydaları"na (bundan sonra – İEİQ), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.05.2011-ci il tarixli 80 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qazdan istifadə Qaydaları"na (bundan sonra – QİQ), Energetika Nazirliyinin Kollegiyasının 29.05.2024-cü il tarixli 3-15/3-1-1/2024 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydaları"na (bundan sonra – TTQ), Energetika Nazirliyinin Kollegiyasının 12.06.2024-cü il tarixli 3-15/3-1-2/2024 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının texniki istismar Qaydaları"na (bundan sonra – TİQ), Energetika Nazirliyinin Kollegiyasının 27.06.2024-cü il tarixli 3-15/3-1-4/2024 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydaları"na (bundan sonra – QQ), Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 21.08.2017-ci il tarixli 06 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qazanxana qurğuları. Layihələndirmə normaları"na (AzDTN 2.12-1), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.06.1999-cu il tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları", Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin 02.03.2009-cu il tarixli 17 nömrəli Əmri ilə təsdiq edilmiş "Qaz təchizatı. Layihələndirmə normaları"na (AzDTN 2.13-1) və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.04.2019-cu il tarixli 164 nömrəli Qərarı ilə təsdiq edilmiş "Büdcə təşkilatlarında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, təbii qaz və su) istehlakına görə limitlərin müəyyən edilməsi və tənzimlənməsi Qaydası"na uyğun olaraq nəzarət olunanın tənzimlənən sahədə təsərrüfatları (sexləri, sahələri və obyektləri) əhatə olunmaqla həyata keçirilir.

1.6. Bu Qaydalarla müəyyən edilən sənədləşmə Agentlikdə tətbiq olunan Elektron Sənəd Dövriyyəsi Sistemi (bundan sonra – ESDS) vasitəsilə həyata keçirilir.

## 2. Plan üzrə (növbəti) nəzarət tədbirinin təşkili

2.1. Plan üzrə (növbəti) nəzarət tədbirinin həyata keçirilməsinin vaxtı və əhatə dairəsi Agentliyin İdarə Heyətinin (bundan sonra – AİH) sədri tərəfindən növbəti il üçün təsdiq edilmiş nəzarət tədbiri həyata keçiriləcək obyektlərin siyahısı ilə müəyyən olunur. Həmin siyahı Agentliyin filialları (bundan sonra – Filiallar) tərəfindən hər il noyabr ayının 1-nə qədər təqdim olunan, Filialların fəaliyyət ərazisində nəzarət oluna bilən (son 1 (bir) il ərzində istismarına buraxılış aktı verilmiş elektrik qurğuları və istismarına icazə verilmiş qaz qurğuları olan obyektlər istisna olmaqla) təşkilatlar barədə məlumatlara əsasən Agentliyin Enerji tənzimləmə və monitorinq departamenti (bundan sonra – TMD) tərəfindən hər il noyabr ayının 15-nə qədər tərtib edilərək təsdiq olunması üçün AİH-nin sədrinə təqdim olunur.

2.2. Plan üzrə (növbəti) nəzarət tədbiri nəzarət sektorundan asılı olaraq bu Qaydaların 1, 2 və ya 3 nömrəli Əlavələri ilə müəyyən edilmiş formalara uyğun olaraq Filial rəhbərinin verdiyi qərar əsasında aparılır.

2.3. Filial tərəfindən plan üzrə (növbəti) nəzarət tədbirinin həyata keçirilməsi haqqında qərarın surəti plan üzrə (növbəti) nəzarət tədbirinin sualları əlavə olunmaqla müşayiət məktubu ilə birlikdə həmin tədbirin icrasının başlanmasına ən azı 5 (beş) iş günü qalmış ESDS-nin Rəqəmsal Yazışma Paketi (bundan sonra – RYP) funksiyası vasitəsilə nəzarət olunana göndərilir. ESDS üzərindən avtomatik göndərilmə mümkün olmadıqda xəbərnaməli sifarişli poçt vasitəsilə çatdırılma təmin edilir.

2.4. Plan üzrə (növbəti) nəzarət tədbirinin icrasına başlandığı anda həmin tədbirin həyata keçirilməsi haqqında qərar və tədbirin sualları nəzarət olunana təqdim edilir.

2.5. Plan üzrə (növbəti) nəzarət tədbirinin həyata keçirilməsi mümkün olmadıqda, Filial rəhbəri tərəfindən TMD-yə bu barədə səbəbi göstərilməklə xidməti məktubla məlumat verilir.

2.6. Plan üzrə (növbəti) nəzarət tədbiri yalnız onun həyata keçirilməsi haqqında qərarda göstərilən nəzarət edənlər tərəfindən aparılır. Müəyyən səbəblərdən (əmək qabiliyyətinin müvəqqəti itirilməsi, ezamiyyə, məzuniyyət, iş yerinin dəyişdirilməsi, əmək münasibətlərinə xitam verilməsi və digər hallarda) qərarda adları göstərilən nəzarət edənlər plan üzrə (növbəti) nəzarət tədbirinin həyata keçirilməsində iştirak edə bilmədikdə Filial rəhbəri tərəfindən nəzarət tədbirinin həyata keçirilməsi haqqında yeni qərar qəbul edilir və həmin qərarda ləğv edilən qərar barədə məlumatlar qeyd olunur. Yeni qərar nəzarət tədbirinin başlandığı an nəzarət olunana təqdim edilir.

## 3. Plandankənar (növbədənkənar) nəzarət tədbirinin təşkili

3.1. Plandankənar (növbədənkənar) nəzarət tədbirləri aşağıdakı hallarda keçirilir:

3.1.1. əvvəl keçirilmiş nəzarət tədbirinin nəticələri üzrə aşkar edilmiş pozuntuların aradan qaldırılmasına dair icrası məcburi olan göstərişdə qeyd edilən pozuntuların aradan qaldırılması üçün müəyyən edilmiş sonuncu müddət tamam olduqdan 5 (beş) iş günü ərzində həmin göstərişin icra olunduğu barədə məlumat Agentliyə daxil olmadıqda;

3.1.2. Agentliyə nəzarət tədbirinin həyata keçirilməsinə əsas verən şikayət daxil olduqda;

3.1.3. nəzarət olunanın plandankənar (növbədənkənar) nəzarət tədbirinin həyata keçirilməsi barədə ərizəsi daxil olduqda;

3.1.4. sosial media vasitələrində yayılan məlumatlar əsasında.

3.2. Bu Qaydaların 3.1-ci bəndində qeyd edilən hallarda plandankənar (növbədənkənar) nəzarət tədbirinin həyata keçirilməsi üçün Filial rəhbəri tərəfindən 3 (üç) iş günü ərzində əsaslandırılmış təqdimatla TMD direktoruna müraciət olunur.

3.3. TMD direktoru plandankənar (növbədənkənar) nəzarət tədbirinin həyata keçirilməsi üçün Filial rəhbəri tərəfindən verilmiş təqdimata 3 (üç) iş günü ərzində baxaraq:

3.3.1. əsaslandırma ilə razı olmadıqda səbəbi göstərilməklə imtina edir;

3.3.2. əsaslandırma ilə razı olduqda plandankənar (növbədənkənar) nəzarət tədbirinin həyata keçirilməsinə razılıq verir.

3.4. Bu Qaydaların 3.3.1-ci yarımbəndi ilə müəyyən edilmiş hallarda, həmin imtinada göstərilən əsaslar aradan qaldırıldıqdan sonra Filial rəhbəri yenidən təqdimatla TMD direktoruna müraciət etməlidir.

3.5. Bu Qaydaların 3.3.2-ci yarımbəndi ilə müəyyən edilmiş hallarda, Filial rəhbəri 5 (beş) iş günü müddətində plandankənar (növbədənkənar) nəzarət tədbirinin həyata keçirilməsi ilə bağlı nəzarət sektorundan asılı olaraq bu Qaydaların 1, 2 və ya 3 nömrəli Əlavələri ilə müəyyən edilmiş formalara uyğun olaraq qərar qəbul edir.

3.6. Plandankənar (növbədənkənar) nəzarət tədbiri yalnız həmin tədbirin keçirilməsi üçün əsas olmuş hallar üzrə həyata keçirilir.

3.7. Plandankənar (növbədənkənar) nəzarət tədbirinin həyata keçirilməsi haqqında qərar və həmin tədbirin sualları nəzarət tədbirinin başlandığı an nəzarət olunana təqdim edilir.

3.8. Plandankənar (növbədənkənar) nəzarət tədbirinin həyata keçirilməsi mümkün olmadıqda, Filial rəhbəri tərəfindən TMD-yə bu barədə səbəbi göstərilməklə xidməti məktubla məlumat verilir.

3.9. Plandankənar (növbədənkənar) nəzarət tədbiri yalnız onun həyata keçirilməsi haqqında qərarda göstərilən nəzarət edənlər tərəfindən aparılır. Müəyyən səbəblərdən (əmək qabiliyyətinin müvəqqəti itirilməsi, ezamiyyə, məzuniyyət, iş yerinin dəyişdirilməsi, əmək münasibətlərinə xitam verilməsi və digər hallarda) qərarda adları göstərilən nəzarət edənlər plandankənar (növbədənkənar) nəzarət tədbirinin həyata keçirilməsində iştirak edə bilmədikdə Filial rəhbəri tərəfindən əvvəlki qərar ləğv edilməklə nəzarət tədbirinin həyata keçirilməsi haqqında yeni qərar qəbul edilir və həmin qərarda ləğv edilən qərar barədə məlumatlar qeyd olunur. Yeni qərar nəzarət tədbirinin başlandığı an nəzarət olunana təqdim edilir.

## 4. Nəzarət tədbirinin həyata keçirilməsi

4.1. Nəzarət tədbiri həyata keçirilərkən nəzarət olunanın təsərrüfatının həcmindən, etibarlılıq kateqoriyasından və texnoloji proseslərdən asılı olaraq bu Qaydaların 1.5-ci bəndində qeyd edilən normativ hüquqi aktların tələblərinə əməl olunması və standartlar üzrə tövsiyələrin nəzərə alınması vəziyyətinin araşdırılması bu Qaydaların 4 nömrəli Əlavəsinə uyğun tərtib edilmiş "Nəzarət tədbiri suallarının Siyahısı" əsasında həyata keçirilir. Həmin siyahı Filial rəhbəri tərəfindən nəzarət tədbirlərinin həyata keçirilməsi haqqında qərarla təsdiq olunur.

4.2. Elektrik enerjisi təchizatı sahəsində aşağıdakılar araşdırılır:

4.2.1. Nəzarət olunanın elektrik enerjisi təchizatının ETEK-ya uyğunluğu, elektrik enerjisi təchizatının birxətli sxemi və onun elektrik enerjisi təchizatının etibarlılıq üzrə kateqoriyasına uyğunluğu, elektrik təsərrüfatının balans mənsubiyyəti sərhədi, subabonentlər barədə məlumat, onlarla elektrik enerjisinə görə hesablaşmaların vəziyyəti;

4.2.2. elektrik enerjisinin istehlakına görə limitlərin müəyyən edilməsi və limitlərə əməl olunmasının vəziyyəti;

4.2.3. elektrik enerjisi ilə təchiz edilməsinin elektrik enerjisinin təchizatçısı (təchizatçı) ilə nəzarət olunan arasında elektrik enerjisinin alqı-satqısının birtipli müqaviləsinə əsasən həyata keçirilməsi və həmin müqavilənin EEİQ-yə uyğun tərtib olunması;

4.2.4. Agentlik tərəfindən icrası məcburi olan, o cümlədən əvvəlki nəzarət tədbiri nəticəsində aşkar edilmiş pozuntuların aradan qaldırılmasına dair verilmiş göstərişlərin müəyyən edilmiş müddət ərzində yerinə yetirilib-yetirilməməsi;

4.2.5. elektrik təsərrüfatına cavabdeh şəxsin təyin olunması, onun TİQ və TTQ üzrə peşə biliklərinin yoxlanılması, həmin normativ hüquqi aktlarla tələb olunan ixtisas qrupuna malik olması;

4.2.6. elektrik təsərrüfatında elektrotexniki işçi heyətin olması, onların TİQ və TTQ üzrə peşə biliklərinin yoxlanılması, həmin hüquqi aktlarla tələb olunan ixtisas qrupuna malik olması;

4.2.7. elektrotexniki işçi heyətin TİQ və TTQ üzrə tələblərə uyğun təlimatlandırılması;

4.2.8. elektrotexniki işçi heyəti üçün vəzifə təlimatlarının mövcudluğu;

4.2.9. hesablaşma elektrik sayğaclarının vəziyyəti (elektrik sayğaclarının üzərində Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin (bundan sonra – AİBNDA) və müvafiq olaraq ötürücü sistem operatorunun (elektrik ötürücü şəbəkəyə qoşulduğu halda) və ya paylayıcı sistem operatorunun sayğacın işlək vəziyyətdə olduğunu təsdiq edən plomblarının (möhürlərinin) mövcudluğu, tamlığı və örtüklə mühafizə olunması);

4.2.10. AİBNDA tərəfindən müəyyən edilmiş müddətlərdə sayğacların növbəti dövlət yoxlanılmasından keçirilməsi;

4.2.11. istismara yararlılığı haqqında arayışı və ya quraşdırma aktının olması, sərfölçmə qabiliyyətinin faktiki istismar olunan elektrik qurğularının sərfiyyatına uyğunluğunun təyin edilməsi;

4.2.12. istehlak olunan elektrik enerjisinə görə hesablaşmaların sayğac vasitəsilə aparılması, enerjinin dəyərinin hesablanması (abonent saldosunun təhlili) və elektrik enerjisinin dəyərinin nəzarət olunan tərəfindən ödənilməsinin vəziyyəti, o cümlədən enerji təchizatçısı ilə nəzarət olunan arasında enerjinin həcmi və dəyəri üzrə üzləşmə aktlarının olması;

4.2.13. elektrik təsərrüfatında gərginliyin, cərəyanın, tezliyin ölçülməsi üçün ölçü hədlərinin parametrlərinə və müəyyən edilmiş dəqiqlik sinfinə uyğun olan nəzarət-ölçü cihazlarından istifadə olunması;

4.2.14. istifadə edilən nəzarət-ölçü cihazlarının (voltmetr, ampermetr, tezlik ölçənlər) və onların AİBNDA-nın müəyyən etdiyi müddətlərdə növbəti dövlət yoxlanılmasından keçirilməsinin vəziyyəti;

4.2.15. elektrik enerjisi təchizatının birxətli sxemində əks olunan elektrik qurğu və avadanlıqların nəzarət olunanın etibarlılıq üzrə kateqoriyasına uyğunluğu (ehtiyat qida mənbəyinin, qidalandırıcı elektrik veriliş xətlərinin, dizel generatorlarının və akkumulyator batareyalarının mövcudluğu), yarımstansiyanın və elektrik paylayıcı qurğuların seksiyalara bölünməsi, ehtiyatın avtomatik işə qoşulması və avtomatik təkrar işə qoşulma qurğularının mövcudluğu və işlək vəziyyətdə olması;

4.2.16. komplekt transformator yarımstansiyası (bundan sonra – KTYS), transformator yarımstansiyası (bundan sonra – TYS), elektrik paylayıcı qurğuların, bina və tikililərin vəziyyəti (tavandan su damması, kabel kanallarının, qapıların, qıfılların, çəpərləmənin, xarici və daxili işıqlanmanın vəziyyəti);

4.2.17. hava və kabel elektrik veriliş xətlərinin (hava xətlərinin qabaritlərinin, izolyatorların, dəmir və dəmir-beton dayaqların torpaqlanmasının, kabel xətlərinin texniki vəziyyətinin və muftaların sayının TİQ və QQ-yə uyğunluğunun, işarə və TTQ üzrə yazıların, plakatların) vəziyyəti;

4.2.18. güc transformatorlarının texniki vəziyyəti (cari və əsaslı təmirin aparılmasının müəyyən edilməsi), yüksək və alçaq gərginlik tərəfdə ayırıcıların, yüksək və alçaq gərginlik tərəfdə girimlərin, transformator yağının səviyyəsinin, yağ sızmalarının, qoruyucuların, bloklamaların və qıfıllamaların, KTYS və TYS-nın ətraf çəpərləmələrinin, təhlükəsizlik lövhələrinin, yuvaların, gediş və gəliş yollarının ümumi vəziyyəti və işarələnməsi;

4.2.19. kommutasiya avadanlıqları (açarlar, ayırıcılar) və onların arasında bloklanmanın olması və vəziyyəti;

4.2.20. şinlərin vəziyyəti (en kəsiyinin ölçüləri, izolyasiyası, fazalar üzrə düzgün rənglənməsi);

4.2.21. kondensator və akkumulyator batareyalarının vəziyyəti;

4.2.22. reaktiv gücün kompensasiyasının (yüksək gərginlikli mühərriklər, statik kondensator batareyaları) ümumi vəziyyəti;

4.2.23. elektrik şəbəkələrinin mühafizə zonalarının ŞMT və QQ-nin tələblərinə uyğunluğu;

4.2.24. tikililərin daxili 0,4 kV-luq paylayıcı qurğularının və elektrik veriliş xətlərinin vəziyyəti;

4.2.25. tikili daxili 0,4 kV-luq elektrik veriliş xətlərində yüklərin fazalar üzrə simmetrik bölünməsi;

4.2.26. daxili 0,4 kV-luq kommutasiya qurğularının və qoruyucuların vəziyyəti;

4.2.27. mühafizə torpaqlanmasının vəziyyəti (yarımstansiyanın, paylayıcı qurğuların torpaqlanma konturu, elektrik qurğu və avadanlıqların torpaqlanma konturu ilə əlaqələndirən metal birləşmələrinin, səyyar torpaqlayıcıların vəziyyəti və qeydiyyatı);

4.2.28. əsas elektrik avadanlıqlarının (transformator, kabel və hava elektrik veriliş xətləri) TİQ-yə uyğun pasportlarının olması, keçirilən təmir və sınaqların nəticələri haqqında qeydlərin həmin pasportlarda aparılması;

4.2.29. rele mühafizəsi və avtomatikaların vəziyyəti, mühafizələrinin selektivliyinin və qoyuluş qiymətlərinin qoşulduğu şəbəkədən asılı olaraq ötürücü və ya paylayıcı sistem operatoru ilə razılaşdırılması;

4.2.30. elektrik qurğu və avadanlıqlarda TTQ üzrə məqsədli yazılar və plakatların olması;

4.2.31. plan-qrafikin mövcudluğu və onun elektroenergetika sektorunda hüquqi aktların tələblərinə uyğunluğu;

4.2.32. plan-qrafikdə nəzərdə tutulmuş təmir və sınaq işlərinin yerinə yetirilməsi, yerinə yetirilməyən işlərin (əgər varsa) səbəbləri;

4.2.33. elektrik qurğu və avadanlıqlarda (transformatorlar, reaktorlar, açarlar, ayırıcılar, mühərriklər, paylayıcı qurğular, torpaqlama, kabel xətləri) ölçü-sınaq işlərinin aparılması və qeydiyyatı;

4.2.34. əməliyyat xidmətinin təşkili, əməliyyat və operativ təmir heyətinin növbətçilik qrafiklərinin tərtibi, heyət üzvlərinin sayı, onların elektrik təhlükəsizliyi üzrə qruplarına tapşırılan və həmin qruplar tərəfindən görülən işlərə uyğunluğu;

4.2.35. paylayıcı sistem operatoru ilə danışıqlar aparmaq səlahiyyəti olan şəxslərin təsdiq olunmuş siyahılarının olması;

4.2.36. əməliyyat jurnalının mövcudluğu və qeydiyyatların aparılması;

4.2.37. texniki təhlükəsizliyə aid lövhələrin olması və onlardan aidiyyəti üzrə istifadə olunması;

4.2.38. naryad, sərəncam və cari istismar üzrə görülən işlərin təsdiq olunmuş siyahılarının mövcudluğu;

4.2.39. naryad və sərəncam verməyə hüququ olan şəxslərin təsdiq olunmuş siyahılarının mövcudluğu;

4.2.40. baş vermiş qəzaların, elektrik zədələnmələri səbəbindən baş vermiş bədbəxt hadisələrin qeydiyyat jurnalının olması və qeydiyyatının aparılması, həmin jurnallardakı qeydlərin hadisə baş verdiyi gün Agentliyə bildirilmiş olması;

4.2.41. elektrik təsərrüfatının təhlükəsizlik texnikası üzrə elektrik mühafizə vasitələri ilə təmin olunması, onların sınaq edilməsi və qeydiyyatının aparılması;

4.2.42. elektrik təsərrüfatının yanğından mühafizə vasitələri ilə təchiz olunmasının vəziyyəti.

4.3. İstilik enerjisi təsərrüfatı üzrə aşağıdakılar araşdırılır:

4.3.1. həmin təşkilat haqqında ümumi məlumat (qazanların sayı, gücü, istilik xəttinin diametri, istilik enerjisi (istilik təchizatı) üçün istifadə edilən isti suyun sərfiyyatı), təsərrüfatının balans mənsubiyyəti sərhədi, subabonentlər barədə məlumat, onlarla istilik enerjisinə görə hesablaşmaların vəziyyəti;

4.3.2. istilik enerjisinin istehlakına görə limitlərin müəyyən edilməsi və limitlərə əməl olunmasının vəziyyəti;

4.3.3. istilik və isti su təchizatı xidmətinin enerji təchizatı müəssisəsi ilə istehlakçı arasında bağlanmış müqaviləyə əsasən həyata keçirilməsi və həmin müqavilənin İEİQ-nin əlavəsi ilə müəyyən edilmiş formaya uyğun bağlanması;

4.3.4. əvvəlki nəzarət tədbiri nəticəsində aşkar edilmiş pozuntuların və ya onların nəticələrinin müəyyən edilmiş müddət ərzində aradan qaldırılmasına dair Agentlik tərəfindən verilən göstərişə əməl olunması;

4.3.5. balans mənsubiyyəti sərhədində quraşdırılmış sayğacın qorunmasına, sayğac və xətdəki siyirtmə, süzgəc üzərindəki plombların toxunulmazlığına cavabdeh olan şəxsin müəyyən edilməsi;

4.3.6. hesablaşma istilik sayğaclarının vəziyyəti (istilik sayğaclarının üzərində AİBNDA və istilik təchizatçısının sayğacın işlək vəziyyətdə olduğunu təsdiq edən plombların (möhürlərin) mövcudluğu, tamlığı və örtüklə mühafizə olunması), AİBNDA-nın müəyyən etdiyi müddətlərdə sayğacların növbəti dövlət yoxlanılmasından

keçirilməsi, istismara yararlılığı haqqında arayışı və ya quraşdırma aktının olması, obyektdə sayğacın sərfölçmə qabiliyyətinin faktiki sərfiyyatına uyğunluğunun təyin edilməsi, sayğacın növbəti dövlət yoxlamasından keçirilməsi;

4.3.7. istilik və isti su təchizatı xidmətlərinə görə hesablaşma aparılması üçün tipi təsdiq edilmiş müvafiq sayğacların quraşdırılması;

4.3.8. istilik avadanlıqlarının texniki cəhətdən saz vəziyyətdə saxlanılmasının təmin edilməsi;

4.3.9. istehlakçıya məxsus olan və ölçüləri istilik təchizatı sisteminin layihəsi ilə müəyyən edilmiş qızdırıcı cihazlara əlavə hissələrin quraşdırılmaması, istilik sistemlərində istilik daşıyıcılarından təyinatından kənar istifadə edilməməsi (sistemdən və qızdırıcı cihazlardan suyu boşaltmamaq);

4.3.10. istifadə edilən nəzarət-ölçü cihazlarının (manometr, termometr) və onların AİBNDA-nın müəyyən etdiyi müddətlərdə növbəti dövlət yoxlanılmasından keçirilməsinin vəziyyəti;

4.3.11. istilik təchizatının birxətli sxeminin olması;

4.3.12. təsərrüfatda qazanxanaların, qazanxana avadanlıqlarının, ötürücü və paylayıcı xətlərin vəziyyəti;

4.3.13. istilik sistemində suyun məcburi dövriyyəsi zamanı qazanxanada biri ehtiyat nasosu olmaqla, ən azı 2 (iki) şəbəkə nasosunun olması;

4.3.14. istilik enerjisi şəbəkələrinin (boru xətlərinin) izolyasiyasının, onların və istilik enerjisi şəbəkəsinin metal konstruksiyalarının (tirlərin, dayaqların, estakadaların) xarici səthləri mühafizə edən korroziya əleyhinə örtüklə təchiz edilməsi;

4.3.15. istilik enerjisi şəbəkəsinin suyunun codluğunu aradan qaldırmaq (suyu yumşaltmaq) üçün suyumşaltma qurğusunun vəziyyəti;

4.3.16. əsas istilik enerjisi qurğu və avadanlıqlarının (qazanların barabanları və kollektorları) texniki pasportlarının olması və bu avadanlıqlarda aparılan təmir və sınaq işlərinin nəticələrinin pasportlarda müntəzəm qeyd edilməsi;

4.3.17. qazanların və qazan avadanlıqlarının iş rejimlərinin, habelə qazanların üfürülməsinin müddətinin qeydiyyatının sutkalıq cədvəldə və ya operativ əməliyyat jurnalında aparılması;

4.3.18. istilik qurğu və avadanlıqlarda ölçü-sınaq işlərinin aparılması;

4.3.19. nəzarət olunanın obyektində istifadə olunan qazanxananın yanacaqla təchiz olunma layihəsinin mövcudluğu və həmin layihə üzrə işlərin həyata keçirilməsinin qanunvericiliyin tələblərinə uyğunluğunun vəziyyəti.

4.4. Qaz təsərrüfatı üzrə aşağıdakılar araşdırılır:

4.4.1. nəzarət olunan haqqında ümumi məlumat (qaz paylayıcısı və ya qaz nəqliyyatçısı tərəfindən verilmiş texniki şərtə uyğun hazırlanmış qazlaşdırma layihəsinin olması, qoşulma nöqtəsinin və qaz qurğularının maksimal saatlıq qaz sərfinin texniki şərtə uyğunluğu), təsərrüfatının balans mənsubiyyəti sərhədi, onlarla qaz təchizatına görə hesablaşmaların vəziyyəti;

4.4.2. təbii qazın istehlakına görə limitlərin müəyyən edilməsi və limitlərə əməl olunmasının vəziyyəti;

4.4.3. nəzarət olunanın qazla təchiz edilməsinin qazın alqı-satqı müqaviləsinə əsasən həyata keçirilməsi və həmin müqavilənin QİQ-nin 3 nömrəli Əlavəsinə uyğun tərtib olunması;

4.4.4. əvvəlki nəzarət tədbiri nəticəsində aşkar edilmiş pozuntuların və ya onların nəticələrinin müəyyən edilmiş müddət ərzində aradan qaldırılmasına dair verilən göstərişin yerinə yetirilib-yetirilməməsi;

4.4.5. layihəyə uyğun olaraq quraşdırılmış hesablaşma qaz sayğaclarının vəziyyəti (qaz sayğaclarının üzərində AİBNDA və qaz təchizatı müəssisəsinin sayğacın işlək vəziyyətdə olduğunu təsdiq edən plombların (möhürlərin) mövcudluğu, tamlığı və örtüklə mühafizə olunması), AİBNDA-nın təsdiq etdiyi müddətlərdə sayğacların növbəti dövlət yoxlanılmasından keçirilməsi, istismara yararlılığı haqqında arayışı və ya quraşdırma aktının olması, obyektdə sayğacın sərfölçmə qabiliyyətinin faktiki istismar olunan qaz qurğularının sərfiyyatına uyğunluğunun təyin edilməsi;

4.4.6. istehlak olunan qaza görə hesablaşmaların sayğac vasitəsilə aparılması, qazın dəyərinin hesablanması (abonent saldosunun təhlili) və qazın hesabının istehlakçı tərəfindən ödənilməsi vəziyyəti, o cümlədən qaz paylayıcısı və ya qaz nəqliyyatçısı ilə nəzarət olunan arasında qazın həcmi və dəyəri üzrə üzləşmə aktlarının olması;

4.4.7. qaz təchizatına dair razılaşdırılmış layihə sənədlərinin olması, qaz qurğularının həmin layihəyə uyğun quraşdırılması, qaz şəbəkəsinə qoşulması və texniki pasportlarında göstərilmiş tələblərə uyğun etibarlı istismar edilməsinin vəziyyəti;

4.4.8. sifarişçinin, sənaye qaz qurğularının tikinti-quraşdırma işlərini aparmış təşkilatın, qaz paylayıcısının, Fövqəladə Hallar Nazirliyinin və Agentliyin birgə işçi komissiyası tərəfindən istismara qəbul edilməsi haqqında aktın olması;

4.4.9. məişət qaz qurğularının (ümumi qaz sərfiyyatı saatda 10 kubmetrədək olan müəssisələrdə) qaz ekspertləri və ya qaz paylayıcısının mütəxəssisləri tərəfindən sınaqdan keçirilməsi və qazpaylayıcı şəbəkəyə qoşulması barədə aktın olması;

4.4.10. tikinti obyektlərinin daxilində qaz sızmasını və dəm qazını müəyyən edən detektorların quraşdırılması və onların işlək vəziyyətdə saxlanılması;

4.4.11. xarici və daxili qaz kəmərlərinin tikinti-quraşdırma işlərinin, habelə onların üzərində quraşdırılmış qaz qurğu və avadanlıqlarının qaz təchizatı layihəsinin tələblərinə, həmçinin tikinti norma və qaydalarına uyğunluğunun vəziyyəti;

4.4.12. qaz sayğacı çıxarıldıqda, qaz sayğacının olmadığı müddət ərzində istifadə edilmiş qazın dəyəri üzrə hesablaşmaların aparılması;

4.4.13. qaz paylayıcısı tərəfindən QİQ-nin tələblərinə əməl etməklə istehlakçıya qazın verilməsinin dayandırılması hallarının təhlili və rəsmiləşdirilməsi;

4.4.14. əsas və köməkçi qaz qurğularının, nəzarət-ölçü cihazlarının və avtomatik idarəetmə vasitələrinin texniki vəziyyəti;

4.4.15. qaz qurğularından təhlükəsiz, etibarlı və qazdan səmərəli istifadə edilməsi üçün təşkilati-texniki tədbirlərin yerinə yetirilməsi.

4.5. Nəzarət olunan sənaye qaz qurğusundan istifadə etdikdə aşağıdakılar əlavə olaraq araşdırılır:

4.5.1. qaz qurğusunun istismarı prosesində 3 (üç) ildə bir dəfədən az olmayaraq, rejim-sazlama işlərinin aparılması və rejim kartlarının tərtib edilməsinə dair sənədlər;

4.5.2. rejim-sazlama işlərinin nəticələrinə əsasən sazlama təşkilatı tərəfindən texniki hesabatın tərtibi və hesabatda qaz qurğusunun müxtəlif iş rejimlərində qazdan səmərəli istifadəyə təsir edən göstəricilərin əks olunması;

4.5.3. qaz qurğusunun, nəzarət-ölçü cihazlarının və avtomatik idarəetmə vasitələrinin texniki cəhətdən saz vəziyyətdə saxlanılması üçün xüsusi təlim keçmiş işçi heyəti tərəfindən xidmət göstərilməsinə dair müqavilənin olması;

4.5.4. qaz qurğusunu istismar edən texniki heyət tərəfindən həmin qaz qurğularına texniki baxış keçirilməsi vəziyyəti;

4.5.5. qaz qurğusunun texniki pasportlarının olması və həmin pasportlarda müvafiq qeydlərin aparılması.

## 5. Nəzarət tədbirinin müddəti

5.1. Plan üzrə (növbəti) nəzarət tədbiri nəzarət olunanın təsərrüfatının həcmindən, etibarlılıq kateqoriyasından və texnoloji proseslərdən asılı olaraq 10 (on) iş günündən çox olmayan müddətdə aparılır.

5.2. Plandankənar (növbədənkənar) nəzarət tədbiri nəzarət olunanın təsərrüfatının həcmindən, etibarlılıq kateqoriyasından və texnoloji proseslərdən asılı olaraq 5 (beş) iş günündən çox olmayan müddətdə aparılır.

## 6. Nəzarət tədbirinin nəticələrinin rəsmiləşdirilməsi

6.1. Nəzarət tədbirinin başa çatdığı gündən gec olmayaraq bu Qaydaların 5 nömrəli Əlavəsinə uyğun iki nüsxədə akt tərtib olunur və nəzarət tədbirinin həyata keçirilməsində iştirak edən bütün şəxslər tərəfindən imzalanır. Aktı imzalamış nəzarət edənlər həmin aktdakı məlumatların düzgünlüyünə görə məsuliyyət daşıyırlar.

6.2. Təlimatda qeyd edilənlərlə yanaşı, nəzarət tədbiri suallarının siyahısından konkret sualların nömrələri göstərilməklə aşkar olunmuş pozuntuların məzmunu, tələbi pozulmuş normativ hüquqi aktların adı və struktur elementləri aydın və dəqiq göstərilməlidir.

6.3. Aktda göstərilən məlumatları təsdiqləyən və nəzarət tədbirinin nəticələri üzrə göstəriş tərtib edilməsi üçün əhəmiyyət kəsb edən sənədlər akta əlavə edilir.

6.4. Akt nəzarət tədbirinin həyata keçirilməsində iştirak edənlər tərəfindən imzalandıqdan sonra nəzarət olunanın adından imzalanmaq üçün nəzarət olunana təqdim edilir.

6.5. Nəzarət olunan aktı almaqdan və (və ya) onu imzalamaqdan imtina etdikdə, bu barədə nəzarət edən tərəfindən aktda müvafiq qeydlər aparılır. Bundan sonra aktın nüsxəsi müşayiət məktubu ilə nəzarət tədbiri başa çatdığı tarixdən növbəti 3 (üç) iş günü ərzində ESDS-nin RYP funksiyası vasitəsilə nəzarət olunana göndərilir. ESDS üzərindən avtomatik göndərilmə mümkün olmadıqda xəbərnaməli sifarişli poçt vasitəsilə çatdırılma təmin edilir.

## 7. Məsuliyyət və hesabatlılıq

7.1. Akt rəsmiləşdirildikdən 15 (on beş) iş günündən gec olmayaraq Filial rəhbəri tərəfindən nəzarət tədbiri materiallarına baxış keçirilir və pozuntu aşkar edildikdə həmin pozuntuların aradan qaldırılmasına dair icrası məcburi olan göstəriş verilir.

7.2. Nəzarət tədbirinin nəticələri üzrə aşkar edilmiş pozuntuların aradan qaldırılmasına dair icrası məcburi olan göstərişin icrasına nəzarət Filial tərəfindən həyata keçirilir.

7.3. Nəzarət tədbirinin nəticələri üzrə aşkar edilmiş pozuntuların aradan qaldırılmasına dair icrası məcburi olan göstərişə əməl etməyən nəzarət olunanın yuxarı qurumlarına müraciət olunması və (və ya) plandankənar (növbədənkənar) nəzarət tədbirinin həyata keçirilməsi üçün Filial rəhbəri tərəfindən TMD-nin direktoruna müraciət edilir.

7.4. Nəzarət tədbirinin nəticələri üzrə aşkar edilmiş pozuntulara və (və ya) həmin pozuntuların aradan qaldırılmasına dair icrası məcburi olan göstərişdə müəyyən edilmiş icra müddətlərinə tam və ya qismən riayət edilməməsinə görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görülür.

7.5. Filiallar tərəfindən hər növbəti ayın 2-dək (ikisinədək) həyata keçirilmiş nəzarət tədbirlərinin nəticələri və görülmüş tədbirlər barədə bu Qaydaların 6 nömrəli Əlavəsinə uyğun olaraq TMD-yə aylıq hesabat təqdim edilir.

**"Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi Qaydaları"na**

**1 nömrəli Əlavə**

## Elektrik enerjisi təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi haqqında

## QƏRAR

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 1.2-ci bəndini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nı, Azərbaycan Respublikası Energetika Nazirliyinin Kollegiyasının 2024-cü il 29 may tarixli 3-15/3-1-1/2024 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydaları"nı, 2024-cü il 12 iyun tarixli 3-15/3-1-2/2024 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının texniki istismar Qaydaları"nı, 2024-cü il 27 iyun tarixli 3-15/3-1-4/2024 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydaları"nı və Azərbaycan Respublikası Energetika Nazirliyinin "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin filiallarının əsasnamələrinin təsdiq edilməsi barədə" 2020-ci il 9 iyul tarixli F-79 nömrəli Əmrini rəhbər tutaraq

**qərara alıram:**

1. ____________________________________________
(nəzarət olunan subyektin ünvanı və tam adı)

elektrik enerjisi təchizatının etibarlığının, qurğuların texniki istismarının, təhlükəsizliyinin, enerjidən istifadənin və bu sahədə mövcud normativ hüquqi aktların tələblərinə əməl olunması vəziyyətinin müəyyənləşdirilməsi üçün ______________________________ nəzarət tədbiri həyata keçirilsin.
plan üzrə (növbəti) və ya plandankənar (növbədənkənar)

2. Nəzarət tədbirinin həyata keçirilməsi ______________________________
(vəzifəli şəxslərin vəzifəsi, soyadı, adı, atasının adı)

____________________________________________ tapşırılsın.

3. "Nəzarət tədbiri suallarının Siyahısı" təsdiq olunsun (əlavə olunur).

4. Nəzarət tədbirinin həyata keçirilməsinin əsası:

5. Nəzarət tədbirinin həyata keçirilməsi müddəti __ ______ 20___ il tarixdən __ (____) iş günü müəyyən edilsin.

**Rəis:**

**“Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi Qaydaları”na**

**2 nömrəli Əlavə**

**İstilik enerjisi təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi haqqında**

**QƏRAR**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nın 1.2-ci bəndini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 sentyabr tarixli 303 nömrəli Qərarı ilə təsdiq edilmiş “İstilik enerjisindən istifadə Qaydaları”nı və Azərbaycan Respublikası Energetika Nazirliyinin “Enerji Məsələlərini Tənzimləmə Agentliyinin filiallarının əsasnamələrinin təsdiq edilməsi barədə” 2020-ci il 9 iyul tarixli F-79 nömrəli Əmrini rəhbər tutaraq

**qərara alıram:**

1. ______________________________________________
(nəzarət olunan subyektin tam adı və ünvanı)

istilik enerjisi təchizatının etibarlığının, qurğuların texniki istismarının, təhlükəsizliyinin, enerjidən istifadənin və bu sahədə mövcud normativ hüquqi aktların tələblərinə əməl olunması vəziyyətinin müəyyənləşdirilməsi üçün ______________________
plan üzrə (növbəti) və ya plandankənar (növbədənkənar)

nəzarət tədbiri həyata keçirilsin.

2. Nəzarət tədbirinin həyata keçirilməsi ______________________
(vəzifəli şəxslərin vəzifəsi, soyadı, adı, atasının adı)

______________________________________________ tapşırılsın.

3. “Nəzarət tədbiri suallarının Siyahısı” təsdiq olunsun (əlavə olunur).

4. Nəzarət tədbirinin həyata keçirilməsinin əsası:

5. Nəzarət tədbirinin həyata keçirilməsi müddəti __ ______ 20___ il tarixdən __ (____) iş günü müəyyən edilsin.

**Rəis:**

**"Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi Qaydaları"na**

**3 nömrəli Əlavə**

**Qaz təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi haqqında**

**QƏRAR**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 1.2-ci bəndini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qazdan istifadə Qaydaları"nı və Azərbaycan Respublikası Energetika Nazirliyinin "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin filiallarının əsasnamələrinin təsdiq edilməsi barədə" 2020-ci il 9 iyul tarixli F-79 nömrəli Əmrini rəhbər tutaraq

**qərara alıram:**

1. ______________________________________________
(nəzarət olunan subyektin tam adı və ünvanı)

qazdan səmərəli istifadənin və etibarlı istismarının, bu sahədə mövcud normativ hüquqi aktların tələblərinə əməl olunması vəziyyətinin müəyyənləşdirilməsi üçün ________________________________ nəzarət tədbiri həyata keçirilsin.
plan üzrə (növbəti) və ya plandankənar (növbədənkənar)

2. Nəzarət tədbirinin həyata keçirilməsi ______________________
(vəzifəli şəxslərin vəzifəsi, soyadı, adı, atasının adı)

________________________________________________ tapşırılsın.

3. "Nəzarət tədbiri suallarının Siyahısı" təsdiq olunsun (əlavə olunur).

4. Nəzarət tədbirinin həyata keçirilməsinin əsası:

5. Nəzarət tədbirinin həyata keçirilməsi müddəti __ ______ 20___ il tarixdən __ (____) iş günü müəyyən edilsin.

**Rəis:**

**"Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi Qaydaları"na**

**4 nömrəli Əlavə**

**"TƏSDİQ EDİLMİŞDİR"**

______________________________

**NƏZARƏT TƏDBİRİ SUALLARININ SİYAHISI**

______________________________

______________________________

______________________________

*(Filial rəhbərinin və ya onun vəzifəsini icra edən vəzifəli şəxsin adı, soyadı, imzası və möhür)*

Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin _________ filialının _________ tarixli ____________ nömrəli qərarına əsasən _______ təchizatı sahəsində

______________________________________________________________

*(nəzarət olunan subyekti adı və ünvanı)*

ünvanında aparılan ______________________________ nəzarət tədbiri ilə bağlı

*(nəzarət tədbirinin növü)*

| S/s | Nəzarət olunana dair məcburi tələblər (suallar) | Tələb yerinə yetirilib | Tələb yerinə yetirilməyib | Qeyd |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |

Nəzarət tədbiri suallarının siyahısını tərtib edən səlahiyyətli vəzifəli şəxs: ____________ ____ ________ _____

(adı, soyadı, vəzifəsi) (gün) (ay) (il)

Nəzarət tədbiri suallarının siyahısı ____ vərəqdən ibarətdir.

Nəzarət tədbirini həyata keçirən (keçirənlər)

______________________________ _____ _____ _____

(adı, soyadı, vəzifəsi) (gün) (ay) (il)

______________________________ _____ _____ _____

(adı, soyadı, vəzifəsi) (gün) (ay) (il)

______________________________ _____ _____ _____

(adı, soyadı, vəzifəsi) (gün) (ay) (il)

**“Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi Qaydaları”na**

**5 nömrəli Əlavə**

**Enerji Məsələlərini Tənzimləmə Agentliyi**
**Nəzarət tədbirinin həyata keçirilməsinə dair**

**AKT № ___________**

«___»_______________20__ il ___________şəhəri (rayonu)

Nəzarət olunanın adı və VÖEN: ____________________________________________

________________________________________________________________

Nəzarət olunan obyektin (obyektlərin) ünvanı:

________________________________________________________________

________________________________________________________________

Nəzarət tədbirini həyata keçirənin (keçirənlərin) soyadı, adı, atasının adı və vəzifəsi:

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

Nəzarət tədbirinin həyata keçirilməsi haqqında qərarın nömrəsi və tarixi:

________________________________________________________________

________________________________________________________________

Nəzarət olunana nəzarət tədbirinin həyata keçirilməsi zamanı onun hüquq və vəzifələrinin izah edilməsi haqqında məlumat:

________________________________________________________________

________________________________________________________________

Nəzarət tədbirinin həyata keçirilməsi müddəti (başlama və başa çatma tarixləri):

________________________________________________________________

________________________________________________________________

Nəzarət olunanın ___________________ təsərrüfatı haqqında ümumi məlumat:

________________________________________________________________

________________________________________________________________

Nəzarət tədbiri suallarının siyahısından konkret sualların nömrələri göstərilməklə aşkar olunmuş qanun pozuntularının məzmunu, tələbləri pozulmuş normativ hüquqi aktların konkret struktur elementləri:

Nəzarət olunanın iradı və ya etirazı (əgər varsa):

Akta əlavə edilən sənədlərin siyahısı:

Aktı tərtib edən nəzarət tədbirini həyata keçirənin (keçirənlərin) imzası:

(imza ) (adı və soyadı)

(imza) (adı və soyadı)

Nəzarət olunanın və ya onun nümayəndəsinin imzası:

(imza ) (adı, soyadı və vəzifəsi)

**"Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi Qaydaları"na**

**6 nömrəli Əlavə**

**20___ ilin____ayı ərzində Agentliyin ________ filialı tərəfindən həyata keçirilmiş nəzarət tədbiri barədə**

**HESABAT**

| S/S | Nəzarət olunan subyektin ünvanı və adı | Nəzarət tədbirinin həyata keçirildiyi tarix (başlanğıc-son) | Nəzarət tədbiri zamanı aşkar edilmiş pozuntu və tələbi pozulmuş normativ hüquqi aktın adı və struktur elementi | Nəzarət tədbirinin rəsmiləşdirilməsinə dair sənədlər | Nəzarət edənlərin adı və soyadı | Qeyd |
|---|---|---|---|---|---|---|
| 1. | | | | | | |
| 2. | | | | | | |
| 3. | | | | | | |
| 4. | | | | | | |